# Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin Novruz bayramı münasibətilə rayon ictimaiyyətinə TƏBRİKİ

**Əziz və hörmətli qəbələlilər!**

Xalqımızın ən əziz bayramı olan Novruz yurdumuza qədəm qoyur. Ulularımızdan bizə yadigar qalan, ruhumuzu və yaddaşımızı bütün zənginliyi ilə özündə əks etdirən bu bayram münasibətilə Sizi səmimi-qəlbdən təbrik edir, hamınıza bol ruzi, bahar sevinci, xoş ovqat, Novruz əhval-ruhiyyəsi arzulayıram!

Qədim tarixə malik Novruz həmişə özüylə qurub-yaratmaq həvəsi gətirmiş, insanlara gözəl duyğular bəxş etmişdir. Baharda təbiətin oyanması ilə torpaq cana gəlir, hər şey təzələnir. Bahar insanların qəlbini sevinc hissləri ilə dolduraraq onları xeyirxahlığa səsləyir, sabaha inamını artırır, firəvan həyata, nəcib əməllərə, fədakar əməyə çağırır.

Min illərin süzgəcindən keçib gələn adətlərimiz, şən və maraqlı mərasimlər bu bayramın bəzəyidir. Xalqımız Novruzu həmişə xoş əhval-ruhiyyə ilə qarşılayır, nəcib əməlləri, gözəl adətləri qoruyub saxlayır və gələcək nəsillərə ötürür.

Gündən-günə çiçəklənən müstəqil Azərbaycanımız hər il qeyd edilən tarixi və milli bayramları yeni-yeni nailiyyətlərlə qarşılayır. Ölkəmizdəki, o cümlədən Qəbələ rayonundakı böyük tərəqqi, sosial-iqtisadi inkişaf ümummilli liderimiz Heydər Əliyev tərəfindən müdrikcəsinə müəyyənləşdirilmiş inkişaf xəttinin bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən böyük məharətlə davam etdirilməsinin məntiqi nəticəsi kimi xarakterizə olunur.

Bolluğun, bərəkətin və xeyirxahlığın təcəssümü olan Novruz bayramı 2009-cu ilin sentyabrında Azərbaycan Respublikasının Birinci Vitse-Prezidenti, ölkənin birinci xanımı Mehriban Əliyevanın təşəbbüsü ilə YUNESKO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilmişdir. BMT-nin Baş Məclisi isə martın 21-ni "Beynəlxalq Novruz Günü" elan etmişdir.

Bu il Novruzu sosial-iqtisadi inkişafımızda əlamətdar nailiyyətlərimiz olan bir dövrdə qeyd edirik. Ölkəmizin və rayonumuzun uğurları bizi hədsiz sevindirir, yeni qələbələrə ruhlandırır. Respublikamız müstəqilliyini qazandıqdan sonra əsrlərin sınağından çıxmış Novruz bayramının dövlət səviyyəsində qeyd edilməsi istiqlal yolunda qazandığımız nailiyyətlərdəndir. Azərbaycan xalqı milli dəyərlərə, milli ənənələrə sadiqdir və dövlətimiz bu dəyərlər üzərində qurulmuşdur.

Rayonumuzun son illərdəki inkişafı ilə bağlı tamamilə dəyişən, yeniləşən və abadlaşan şəhərimizdə, qəsəbə və kəndlərimizdə Novruz günləri əsl el şənliklərinə çevrilir.

Novruz bayramını xarici ölkələrdə yaşayan soydaşlarımız da yüksək səviyyədə qeyd edirlər. Bu bayram dünyadakı bütün azərbaycanlıların həmrəyliyini gücləndirir, onların vətən sevgisini daha da artırır.

**Əziz qəbələlilər!**

Sizi bir daha Novruz bayramı münasibətilə ürəkdən təbrik edir, hamınıza can sağlığı, xoşbəxtlik və yeni uğurlar arzulayıram. Süfrənizdən ruzi-bərəkət əskik olmasın.

***Bahar əhval-ruhiyyəli Novruz bayramınız mübarək!***

# Ailə bizneslərini qurmaq üçün aktivlərlə təmin olunublar

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 7 aprel 2016-cı il tarixli Sərəncamının icrası olaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən özünüməşğulluq proqramı çərçivəsində Qəbələ rayonunda bir qrup işsiz və işaxtaran şəxs ailə bizneslərini qurmaq üçün aktivlərlə (mal və materiallarla) təmin olunub.***

Bununla əlaqədar Qəbələ Mədəniyyət Mərkəzində keçirilən tədbirdə əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Mətin Kərimli, nazirliyin aidiyyəti struktur bölmələrinin və rayon icra hakimiyyətinin məsul şəxsləri, özünüməşğulluq proqramının iştirakçıları, yerli ictimaiyyətin nümayəndələri iştirak ediblər. Tədbiri rayon icra hakimiyyəti başçısının müavini Arif Allahverdiyev açıb.

Tədbirdə çıxış edən əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Mətin Kərimli bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyevin "Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında" 7 aprel 2016-cı il tarixli Sərəncamı ölkəmizdə əmək resurslarının səmərəli məşğulluğunun təminatına yönələn tədbirlərin miqyasının özünüməşğulluq proqramı vasitəsilə daha da genişlənməsinə imkan verib. Bu məqsədlə Prezidentin ehtiyat fondundan 6 milyon manat vəsait ayrılıb. Sərəncamın icrası olaraq, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 2016-cı ilin aprel ayının 1-dək məşğulluq orqanlarında işsiz və işaxtaran kimi qeydiyyata alınmış və özünüməşğulluq fəaliyyətini qurmaq üçün potensial imkanlara malik şəxslər müəyyən olunub və biznesin təşkili ilə bağlı iki aylıq təlim kurslarına cəlb ediliblər.



Özünüməşğulluq proqramının iştirakçısı olan Laza kənd sakini Nadir Muştaqov 2016-cı ilin aprel ayının 1-dək rayon məşğulluq mərkəzində işsiz kimi qeydiyyata alındığını, özünüməşğulluq proqramında iştirak etmək üçün müraciətinin müsbət qəbul edildiyini bildirib: "İlk növbədə ailəmiz adından Azərbaycan Prezidenti cənab İlham Əliyevə dərin minnətdarlığımızı bildiririk ki, bizim məşğulluğumuzun təmin olunması, ailə təsərrüfatımızın qurulması üçün dövlət tərəfindən belə bir əlverişli imkan yaradılıb. Bizə verilən mal və materiallardan düzgün və məqsədyönlü şəkildə istifadə edərək, təsərrüfatımızı daim genişləndirməyə, gəlirlərimizi artırmağa çalışacağıq. Bunun üçün təlim kurslarında da lazımi biliklər əldə etmişik".

Digər iştirakçı Tehran Rüstəmov çoxdandır ki, öz ailə təsərrüfatını qurmaq arzusunda olduğunu, lakin maddi imkanı olmadığından bunu edə bilmədiyini qeyd edib: "Cənab İlham Əliyevin bizlərə diqqət və qayğısı nəticəsində mənim bu arzum reallaşdı. İndi öz ailə təsərrüfatımız var və buna çox sevinirik. Yeni qurduğumuz bu təsərrüfatı ildən-ilə inkişaf etdirməyi, özümüzə gəlirli bir biznes qurmağı qarşımıza məqsəd qoymuşuq və bu məqsədə də çatacağıq".

Özünüməşğulluq proqramı çərçivəsində təqdim olunmuş aktivlər hesabına Qəbələ şəhər sakini Abuzər Abdullayevin, Çuxur Qəbələ kənd sakini Amil Kərimovun, Vəndam qəsəbəsi sakini Elman Niftəliyevin yeni yaradılmış ailə təsərrüfatlarına baxılıb. Baxış zamanı onlara verilmiş mal və materiallardan səmərəli şəkildə istifadə olunduğu müşahidə edilib.

Özünüməşğulluq proqramı 1500 nəfərə yaxın işsiz və işaxtaran vətəndaşın ailə təsərrüfatlarının yaradılması yolu ilə onların, eləcə də ailə üzvlərinin özünüməşğulluğunun təmin olunmasını nəzərdə tutur. Bu sahədə aparılan işlər eyni zamanda əlavə iş yerlərinin yaradılmasına, gələcəkdə vergi və sosial sığorta ödəyicilərinin çoxalmasına, kiçik və orta sahibkarlığın genişlənməsinə hesablanıb.

**✍ Varis YAQUBOV,**
**İlkin Vəlizadə.**
***«Qəbələ».***

# Tədris mərkəzində turizm üzrə mütəxəssislər hazırlanır



***Turizmin inkişaf etdirilməsi üçün vacib amillərdən biri mütəxəssislərin hazırlanmasıdır. Belə mütəxəssisləri hazırlayan müəssisələrdən biri də ölkəmizin böyük turizm mərkəzlərindən olan Qəbələdə fəaliyyət göstərir.***

Tədris mərkəzinin nəzdində müasir tələblərə cavab verən üçmərtəbəli tədris korpusu, ikimərtəbəli yataqxana, iclas zalı, yeməkxana, laboratoriya, şagirdlərin istehsalat təcrübəsi keçməsi üçün serviz otaqlar, avadanlıqlarla təchiz olunan emalatxana var.

Tədris mərkəzi ilkin mərhələdə 90 nəfər şagirddən ibarət 6 qrupla fəaliyyətə başlayıb. Hazırda isə mərkəzdə 9 qrup fəaliyyət göstərir. Bu qruplarda aşpaz, qənnadçı-şirniyyatçı, ofisiant, barmen, bufetçi, mehmanxana inzibatçısı, turizm agenti, əməliyyatçı mühasib, kompüter operatoru ixtisasları üzrə kadrlar hazırlanır. Qruplardakı şagirdlər dövlət büdcəsi hesabına təhsil alırlar. Qənnadçı-şirniyyatçı, kompüter operatoru və əməliyyatçı operator peşələri üzrə şagirdlər isə ödənişli əsaslarla oxuyurlar.

Turizm sektorunda müşahidə olunan inkişaf gənclərdə mərkəzə marağı artırıb. İndiyədək məktəbi 900 nəfərədək məzun bitirib. Hazırda burada 181 şagird təhsil alır.

Yeri gəlmişkən qeyd edək ki, mərkəz işəgötürən təşkilatlarla sıx əlaqə qurub. Rayonda fəaliyyət göstərən beşulduzlu otellərdən tutmuş istirahət mərkəzlərinə kimi hamısı məktəbin sifarişçiləridir. Onlarla qurulan əlaqə kadra olan tələbatı da öyrənməyə kömək edir. Belə ki, hansı ixtisasdan neçə nəfər tələb olunduğu əvvəldən öyrənilir və Təhsil Nazirliyi qəbul planını buna uyğunlaşdırır.

Birillik təhsil alanlar sentyabr-fevral ayları ərzində nəzəri təlim keçirlər. Fevralda imtahan olur. Şagirdlər öz peşələri ilə yanaşı, ingilis dili və informasiya texnologiyalarından da imtahan verirlər. Sonra isə təlimlər başlayır. Aprel ayından etibarən şagirdlər istehsalat təcrübəsinə göndərilirlər. Otellərlə bağlanan müqavilə əsasında şagirdlər ixtisasları üzrə işə başlayırlar. Onların işlə təminatları bu iki ay ərzində həll olunur. Təcrübə bitdikdən sonra şagirdlər iyun ayında buraxılış imtahanı verirlər. İmtahan komissiyasının sədri sifarişçi təşkilatların rəhbərlərindən biri təyin edilir. Odur ki, imtahan masasından birbaşa otelə işə dəvət alanlar da olur.

Mərkəzin uğurları da az deyil. Təhsil Nazirliyinin dəstəyi əsasında Gənclər Fondunun hazırladığı layihədə Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzinin şagirdləri də iştirak etmiş və həmin layihə çərçivəsində keçirilən sərgidə biznes layihələri üzrə ikinci yeri tutmuşlar. Qəbələli şagirdlər həmçinin respublika Kulinariya Mərkəzinin təşkil etdiyi istehsalat təlim ustası və aşpaz ixtisası üzrə yarışlarda da iştirak etmişlər. Müəllim Azər Abdulxalıqovun komandası yarışda mükafat qazanmışdır.

**«Qəbələ».**